

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (24.042)

18 avqust 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avqustun 17-də Bakının Dənizkənarı Milli Parkında dünya şöhrətli müğənni Müslüm Maqomayevin abidəsinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Sonra Prezident İlham Əliyev Müslüm Maqomayevin abidəsi üzərindəki örtüyü götürüb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə söhbət ediblər.

Sonda xatirə şəkilləri çəkdirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 17 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir qrup hərbi qulluqçusu təltif edilmişdir. Təltif edilənlər arasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının da hərbi qulluqçuları vardır:

**Həşimov Pərviz Mehman oğlu – polkovnik-leytenant**

"Vətən uğrunda" medalı ilə

**Rüstəmov Əli Mübariz oğlu – mayor**

"İgidliyə görə" medalı ilə

**İsgəndərov Vüsal Mehman oğlu – polkovnik-leytenant**

**Musayev Rakif Qəşəm oğlu – polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

Dövlət proqramı icra olunur

## Məşğulluğun artırılması sosial siyasətin əsasını təşkil edir

***Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların mərkəzində insan amili, əhalinin məşğulluğunun və rifahının yüksəldilməsi dayanır. Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişaf etdirilməsi və əlverişli işgüzar mühitin yaradılması məqsədilə həyata keçirilən tədbirlər yeni iş yerlərinin açılmasına, əhalinin maddi rifahının yaxşılaşdırılmasına, məşğulluğun təmin olunması və gəlirlilik səviyyəsinin yüksəldilməsinə səbəb olur. Bu tədbirlərin davamlı xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın mühüm əhəmiyyəti vardır.***

Proqramın icrası ilə bağlı görülən işlər cari ilin ilk yarısında da diqqət mərkəzində olmuş, sahibkarlığın inkişafına dövlət dəstəyi və yeni iş yerlərinin açılması ilə bağlı tədbirlər davam etdirilmişdir. Belə ki, yanvar-iyun aylarında mikro, kiçik və orta sahibkarlığın inkişafını təmin etmək məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən, ümumilikdə, 80 layihənin maliyyələşdirilməsinə 6 milyon 212 min 300 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu dövrdə muxtar respublikada yerli xammala əsaslanan 6 istehsal sahəsinin yaradılması, 3 istehsal sahəsinin genişləndirilməsi, 2 istehsal sahəsinin bərpası başa çatdırılmış, 13 istehsal sahəsinin yaradılması və 7 istehsal sahəsinin genişləndirilməsi davam etdirilmişdir. Ümumilikdə, dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 90 layihə üzrə işlər başa çatdırılmışdır ki, bu da həmin sahələrdə 267 iş yerinin açılması ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Son illər muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait iqtisadiyyatın dinamik inkişafını təmin etməklə yanaşı, iş yerləri də açılmış, əhalinin məşğulluğu və rifahı yüksəlmişdir..."***

Əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən dövlət əhəmiyyətli tədbirlərdən biri də özünüməşğulluq proqramıdır. Proqram çərçivəsində verilən aktivlər aztəminatlı ailələrin dövlət dəstəyi ilə fərdi təsərrüfatlara sahib olmasına və sahibkarlığa çıxış imkanı qazanmalarına şərait yaradır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası birinci yarım ildə də davam etdirilmiş, ümumilikdə, 182 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin olunmuşdur. Onlar içərisində 10 ailə başçısını itirmiş, 11 nikahı pozulmuş, 5 cəzaçəkmə müəssisəsindən azad edilmiş, 1 Vətən müharibəsində itkin düşmüş, 85 sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş şəxs, eləcə də 21 qazi, 20 şəhid ailəsi və 1 çoxuşaqlı ailə qeydə alınmışdır. Proqrama cəlb edilən 88 ailənin hər birinə 2 baş iribuynuzlu, 43 ailənin hər birinə 20 baş xırdabuynuzlu heyvan, 12 ailənin hər birinə 10 yeşik arı ailəsi, 19 ailəyə miniyerşumlayan, 6 ailəyə otbiçən, 1 ailəyə südsağan aqreqat, 1 ailəyə təmir-tikinti, 1 ailəyə dülgər, 2 ailəyə qaynaqçı, 1 ailəyə bərbər, 1 ailəyə bərbər-manikürçü, 1 ailəyə unlu və qənnadı məmulatlarının hazırlanması üçün avadanlıq və ləvazimatlar, 4 ailəyə inkubator və quş tükü təmizləyən aparat, 2 ailəyə su motoru verilmişdir. Əlavə olaraq, əvvəlki dövrdə aktiv verilən ailələrə məxsus təsərrüfatlarda monitorinqlər aparılmış və nümunəvi fəaliyyət göstərən 1 ailəyə otdoğrayan, 5 ailəyə arpa-buğdaqıran aqreqat təqdim olunmuşdur. Eyni zamanda Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası arasında bağlanan memorandum çərçivəsində 9 ailənin hər birinə dərzi, 2 ailənin hər birinə kiçik dəmirçi sexi üçün avadanlıqlar və ləvazimatlar, 3 ailənin hər birinə heyvandarlıq sahəsi üzrə canlı aktivlər və yem ehtiyatı, 2 ailənin hər birinə avtomobil şinlərinin bərpası və təmiri, 1 ailəyə avtoçilingər xidmətlərinin göstərilməsi, 1 ailəyə kiçik fotoatelye üçün avadanlıqlar, 1 ailəyə telefon təmiri, 1 ailəyə bərbər-manikürçü, 3 ailənin hər birinə kiçik dülgər sexi avadanlıqları, 1 ailəyə miniyerşumlayan aqreqat və qoşqu, 1 ailəyə isə musiqi alətləri verilməklə, ümumilikdə, 25 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin edilmişdir.

Həmçinin sosial tərəfdaş qismində muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən sosial qayğıya ehtiyacı olan 9 ailənin hər birinə 2 baş iribuynuzlu, 9 ailənin hər birinə 20 baş xırdabuynuzlu, 2 ailənin hər birinə isə 10 yeşik arı ailəsi verilməklə, ümumilikdə, 20 ailənin özünüməşğulluğu təmin olunmuşdur.

Dövlət proqramında nəzərdə tutulan aktiv məşğulluq tədbirlərinin reallaşdırılması işaxtaran və işsiz şəxslərin əmək bazarına çıxışının dəstəklənməsinə və onların məşğulluğunun təmin olunmasına imkan verir. Bu şəxslərin peşə bacarıqlarına, əmək vərdişlərinə və öz seçimlərinə uyğun iş yerləri ilə təmin olunmasında aktiv məşğulluq tədbiri kimi əmək yarmarkalarının xüsusi rolu vardır. Birinci yarım ildə işaxtaran və işsiz şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədilə bu qəbildən olan tədbirlərin təşkili davam etdirilmiş, muxtar respublikanın şəhər və rayonlarında keçirilən əmək yarmarkalarında 215 şəxsə müvafiq işlə təmin olunması üçün göndəriş verilmişdir. Bütövlükdə, bu dövrdə məşğulluq orqanları tərəfindən 1313 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur ki, onlar içərisində gənclərin sayı 307, qadınların sayı isə 304 olmuşdur.





Cari ilin ilk yarısında məşğulluq orqanları tərəfindən işlə təmin olunanların 18-ni sağlamlıq imkanları məhdud şəxslər təşkil etmişdir ki, bu da həmin şəxslərin məşğulluq imkanlarından istifadənin xüsusi diqqətdə saxlanılmasından xəbər verir. Bu sosial kateqoriyaya məxsus şəxslərin məşğulluğunun təmin olunması istiqamətində görülən işlər onların cəmiyyətə inteqrasiyasını sürətləndirir. Dövlət proqramının icrasına uyğun olaraq birinci yarım ildə sağlamlıq imkanları məhdud 26 qadınla bağlanmış müqavilə əsasında isti qış geyimlərinin toxunuşuna başlanılmışdır. Həmçinin bu dövrdə Babək, Ordubad, Kəngərli, Culfa və Sədərək rayonlarından 31 sosial qayğıya ehtiyacı olan və 48 sağlamlıq imkanları məhdud qadına dekorativ-tətbiqi sənət sahəsi üzrə bədii tikmə və xalçaçılıq peşəsi üzrə təlimlər keçirilmişdir.

Dövlət proqramında özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Tapşırığın icrası məqsədilə birinci yarım ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə 50 şəxsin 2600 manat dəyərində 598, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 183 şəxsin 10 min manat dəyərində 1201 əl işinin satışı təmin edilmişdir.

İşaxtaran və işsiz şəxslərin əmək bazarının tələbatına uyğun peşə kurslarına cəlb olunması onların məşğulluğunun təmin edilməsində rol oynayan digər mütərəqqi tədbirlərdəndir. Bu kurslarda təhsil alanların öz bacarıqlarına uyğun peşələrə yiyələnmələri həmin şəxslərin əmək bazarına daha tez inteqrasiya olunmalarına gətirib çıxarır. Dövlət proqramının icrasına uyğun olaraq cari ilin birinci yarısında müxtəlif peşələr üzrə Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən 8 kursa 131, Təhsil Nazirliyinin peşə təhsili müəssisələrində təşkil edilən 13 kursa 268 nəfər cəlb olunmuşdur. Həmçinin bu dövrdə ümumtəhsil məktəblərinin 2046 yuxarı sinif şagirdinə müxtəlif peşə və ixtisaslar barədə məlumatlar verilmişdir ki, bu da onların gələcəkdə əmək prosesinə qoşularkən düzgün seçim etmələri üçün mühüm əhəmiyyət kəsb edir.

Proqramda işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin olunmasına yönələn tədbirlərlə yanaşı, məşğul şəxslərin əməyinin mühafizəsi ilə bağlı tapşırıqlar da nəzərdə tutulmuşdur. Çünki sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması iş yerlərində işgüzar fəallığın və məhsuldarlığın yüksəlməsi baxımından olduqca vacibdir. Bu istiqamətdə cari ilin ilk yarısında işçilərin əməyinin mühafizəsi səviyyəsinin müəyyən olunması məqsədilə 65 obyektdə yoxlama aparılarkən fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 133 işçi həmin vasitələrlə yerində təmin edilmiş, 64 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta üzrə 34 min 760 nəfərlə müqavilə bağlanması isə işçilərin sağlam əmək şəraitində işləmək hüququnun təmin olunmasına yönələn digər mühüm tədbir kimi diqqəti cəlb etmişdir.

Həmçinin bu dövrdə sığorta müqavilələrinin bağlanmasının təmin edilməsi ilə eyni vaxtda qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə əmək müqavilələrinin bağlanmasına nəzarət də davam etdirilmişdir. İşəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi və əmək münasibətləri iştirakçılarının hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər keyfiyyətli istehsal və xidmət prosesinin təmin edilməsinə şərait yaratmışdır. Belə ki, birinci yarım ildə aparılan monitorinqlər zamanı 53 obyektdə 118 işçinin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edildiyi müəyyən olunmuş, onların əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil edilməsinə dair işəgötürənlərə yazılı xəbərdarlıq edilmişdir.

Daxili əmək bazarının qorunması zərurəti əmək miqrasiyası proseslərinin tənzimlənməsini də aktuallaşdırır. Əcnəbilərin iş icazəsi almadan əmək prosesinə qoşulması yerli əmək ehtiyatlarından səmərəli istifadəni çətinləşdirir. Ona görə də Dövlət proqramında əməkçi miqrantların çalışdıqları iş yerlərində müvafiq statusa və iş icazəsinə malik olmalarına, onların əmək fəaliyyətlərinin qanuniliyinə nəzarət edilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Tapşırığın icrası məqsədilə cari ilin yanvar-iyun aylarında muxtar respublikada haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün 99 əcnəbiyə iş icazəsi ilə bağlı rəy verilmişdir. Həmçinin bu dövrdə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 2 əcnəbi aşkarlanmış və barələrində qanunvericiliyin tələblərinə uyğun tədbir görülmüşdür.

**"Şərq qapısı"**

İnkişaf edən bölgələrimiz

# Ordubad inkişafın yeni mərhələsinə qədəm qoyub

## Bunu 2022-ci ilin ilk yarım ilində görülən işlər də sübut edir



***Ümummilli liderimiz Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad rayonu muxtar respublikamızda aparılan məqsədyönlü siyasət nəticəsində günü-gündən inkişaf edir. Bölgədə aparılan tikinti-quruculuq tədbirləri nəticəsində yaraşıqlı binalar, abad, rahat yollar əhalinin ixtiyarına verilib. Turizm imkanlarının əhatəliliyi ilə diqqəti çəkən rayonun ən ucqar kəndləri müasirləşib, geniş sosial infrastruktur qurulub. Hazırda da bir çox yaşayış məntəqələrində tikinti-abadlaşdırma tədbirləri davam etdirilir.***

Ordubad Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, qeyd edə bilərik ki, rayonda 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2022-ci ilin yanvar-iyun aylarında sənaye məhsulu 1,9, əsas kapitala yönəldilmiş vəsaitlər 1,7, kənd təsərrüfatı məhsulu 14,5, informasiya və rabitə xidmətləri 2,3, pərakəndə əmtəə dövriyyəsi 1,8, əhaliyə göstərilmiş ödənişli xidmətlər isə 1,5 faiz artıb.

Muxtar respublikanın sosial-iqtisadi inkişafının əsasını təşkil edən sənaye potensialının daha da gücləndirilməsi əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynamaqla bərabər, eyni zamanda bölgənin nüfuzunun artırılmasında əsasdır. Ordubad rayonu da bu inkişafdan bəhrələnib 2022-ci ilin yanvar-iyun aylarında sənaye məhsulunun dəyəri 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 4 milyon 753 min manat olub. Bəhs olunan dövrdə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 11 istehsal və xidmət sahəsi yaradılıb, 10 istehsal və xidmət sahəsinin yaradılması hazırda davam etdirilir.

Tikinti-quruculuq tədbirləri rayonun turizm simasını daha da gözəlləşdirib. Belə ki, son illərdə rayonda müasir yol infrastrukturu yaradılıb, ən ucqar kənd yolları abadlaşdırılıb, müasir kənd və xidmət mərkəzləri tikilib əhalinin istifadəsinə verilib. Bu ilin ilk yarım ilində də bu işlər davam etdirilib. Adıçəkilən dövrdə rayonda 15 müxtəlif təyinatlı obyektin tikintisi və yenidən qurulması başa çatdırılıb, 29 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri, həmçinin Sərhəd Zastavası üçün infrastruktur obyektlərinin, Kələki, Unus, Pəzməri, Azadkənd və Xanağa kəndlərində kənd mərkəzinin tikintisi davam etdirilib.

Sürətli inkişafı kənd təsərrüfatı məhsullarının istehsalında da görmək olar. Belə ki, bu il də əhalinin ərzaq məhsullarına olan tələbatının keyfiyyətli yerli məhsullar hesabına ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, daxili bazarda məhsul bolluğu yaradılıb.

Rayonda “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” bu ilin ilk 6 ayında da uğurla icra edilib. 2022-ci ilin məhsulu üçün rayonda 3937 hektar sahədə əkin aparılıb ki, onun da 1800 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 11 hektarını dən üçün qarğıdalı, 587 hektarını kartof, 647 hektarını tərəvəz bitkiləri, 18 hektarını ərzaq üçün bostan bitkiləri, 214 hektarını cari ildə əkilmiş çoxillik otlar, 660 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edib.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2022-ci ilin yanvar-iyun aylarında rayonda diri çəkidə 2337,6 ton ət, 3736,2 ton süd, 9 milyon 153 min yumurta istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 35,7, süd istehsalı 1,5, yumurta istehsalı isə 1,1 faiz artıb. Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 4 oktyabr tarixli Fərmanının icrası bu sahənin inkişafına yeni imkanlar yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunmasında, istehsal edilən məhsulların ixrac potensialının artırılması və kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulmasında əhəmiyyətli rol oynayır. Rayonda həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2022-ci ilin yanvar-iyun aylarında bir il öncəyə nisbətən 14,5 faiz çox, yəni 14 milyon 575 min 900 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.






Nəqliyyat, informasiya-rabitə və energetika sahəsi istiqamətində tədbirlər davam etdirilməkdədir. Rayonda müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması əsas məsələlərdən biridir. Bəhs olunan dövrdə Vənənd-Pəzməri və Azadkənd avtomobil yollarının yenidən qurulması, Vənənd kəndində bir körpünün təmiri davam etdirilib. Rayonda informasiya və rabitə sahəsinin inkişafı diqqətdə saxlanılıb, mobil rabitə xidmətlərinin dəyəri 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artıb. Elektroenergetika sektorunda davamlı olaraq yeni güclərin yaradılması, infrastrukturun müasir standartlar səviyyəsində yenilənməsi diqqətdə saxlanılıb. Ordubad və Tivi Su Elektrik stansiyalarının, Xanağa kəndində 35/10 kilovoltluq yarımstansiyanın tikintisi davam etdirilib.

Sahibkarlıq fəaliyyəti və məşğulluq məsələlərinə də diqqət xeyli artıb. Rayonda sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi əhalinin məşğulluğunun artırılmasında və rifahının daha da yüksəldilməsində, özünüməşğulluq imkanlarının genişləndirilməsində mühüm rol oynayıb.

Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəldib, əmtəə dövriyyəsinin həcmini genişləndirib. 2022-ci ilin yanvar-iyun aylarında pərakəndə əmtəə dövriyyəsi 2021-ci ilin müvafiq dövrünə nisbətən 1,8 faiz artaraq 47 milyon 596 min 500 manat olub. Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Dizə kəndində ticarət mərkəzinin, Anaqut kəndində istirahət mərkəzinin tikintisi başa çatdırılıb, Kələki, Unus, Pəzməri, Azadkənd, Xanağa kəndlərində xidmət mərkəzinin tikintisi davam etdirilib.

Təhsil, mədəniyyət və sosial təminat sahəsində bir çox tədbirlər həyata keçirilib. Bu ilin ilk yarım ili ərzində rayonda təhsil quruculuğu istiqamətində bir çox işlər görülüb. Pəzməri və Azadkənddə məktəb binalarının tikintisi, Xanağa, Unus və Kələki kəndlərində məktəb binalarının yenidən qurulması davam etdirilir. Şəhər mərkəzində yerləşən Cümə məscidinin yenidən qurulmasının davam etdirilməsi milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdiriləərək gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Rayonda pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılıb. Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən 2022-ci ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin ödənilməsinə 8 milyon 808 min 700 manatdan çox vəsait yönəldilib ki, bu da 2021-ci ilin göstəricisindən 6 faiz çoxdur. Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərib, 1 iyun 2022-ci il tarixə rayon əhalisinin sayı 50 min 362 nəfər olub.

Aparılan təhlillər göstərir ki, Ordubad rayonunda bütün sahələrdə inkişaf gedir. Bu, əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynamaqla bərabər, “Sənaye ili”ndə də rayonun imicinin qorunub saxlanılmasına öz müsbət təsirini göstərir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

Ailə təsərrüfatlarımız

# Torpağın sehrinə düşdünsə, ondan ayrıla bilmirsən

***Muxtar respublikada mütərəqqi təsərrüfat forması kimi ailə təsərrüfatlarının yaradılmasının tarixi bir neçə ildir və bu gün qədim diyarımızın iqtisadiyyatında həmin təsərrüfatlar önəmli yerə malikdir. Bunu ötən illərdə qazanılan uğurlar da sübut edir. Hərtərəfli dövlət dəstəyi hesabına günü-gündən sayı artan, iqtisadiyyatımızın gücləndirilməsinə, insanların ailə büdcələrinin yüksəldilməsinə töhfələr verən ailə təsərrüfatlarının bir üstünlüyü də ondadır ki, bu təsərrüfatlar ənənəvi emal və istehsal sahələri ilə yanaşı, həm də unudulmaqda və ya az məşğul olunan sahələrdə fəaliyyət göstərməyə daha çox maraqlıdır.***

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da bu gün ailə təsərrüfatları öz səmərəli məşğulluq fəaliyyətləri ilə diqqəti çəkir. Məlumat üçün bildirək ki, bu gün rayonda 425 ailə təsərrüfatı formalaşıb. Belə təsərrüfatlar hərtərəfli dövlət dəstəyindən yararlanaraq bölgədə məhsul bolluğu yaratmağa, münbit torpaqlarımızın hər bir qarışından təyinatı üzrə istifadə etməyə səy göstərir.

Söhbətimin əvvəlində də qeyd etdiyim kimi, bu bölgədə də unudulmuş və ya az tutulan sahələrin inkişafına maraq getdikcə artır.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bu gün Şərur rayonunda 2022-ci ilin məhsulu üçün 1032 hektar sahə qarğıdalı və 68 hektar sahə günəbaxan üçün ayrılıb. Belə ki, Düdəngə kənd sakinləri Mübariz Şirəliyev 7 hektar sahədə qarğıdalı,



22,5 hektar sahədə günəbaxan, Natiq Vəliyev 4,3 hektar sahədə qarğıdalı, 1,5 hektar sahədə günəbaxan, Püsyan kənd sakini Sultan Tağıyev 21,6 hektar sahədə qarğıdalı, 6 hektar sahədə günəbaxan əkini aparıblar. Onu da qeyd edək ki, bütün ailə təsərrüfatlarında bu sahəyə maraq getdikcə artır. Biz onlar sırasında daha çox əkin aparan ailə təsərrüfatı başçılarının adlarını çəkdik. Onlardan biri ilə şəxsən görüşüb həmsöhbət olduq. Sultan Tağıyevin 65 yaşı var. Əsl torpaq adamıdır. Bu qiymətli sərvətin dilini bilir, onun, necə deyərlər, nazını çəkməyi bacarır. Torpaq da onu sevənlərin, qayğı göstərənlərin zəhmətini əvəzsiz qoymur. Bunu Sultan kişi neçə illərdir ki, görür. Yaşının bu çağında da bütün günü torpaqla sıx təmasdadır, müxtəlif təsərrüfat sahələri ilə məşğul olur:

– Sovxoz və kolxozlara məxsus torpaqları camaata paylayanda mən də çoxları kimi düşünürdüm ki, texnikasız əkin əkmək olar? Torpağın şumlanması var, ot sahələrinin, taxılın biçilməsi var... sahədən topladığın məhsulun daşınması var... Elə bil dünən idi. Ötən bu müddətdə hər şey öz yerini tapdı. Xüsusilə də texnika sarıdan olan çətinliklər aradan qaldırıldı. İllərlə su getməyən torpaqlara su çəkildi, nasos stansiyaları tikildi, artezian quyuları qazıldı, həmin torpaqlar əkin dövriyyəsinə qatıldı.

Həmsöhbətim deyir ki, 7 nəfərdən ibarət ailə təsərrüfatı var. Bundan əlavə, heyvandarlıq təsərrüfatına daha 3 nəfər cəlb edib. Öhdəsində 60 baş iribuynuzlu, 300 baş xırdabuynuzlu heyvan var. Pay torpağından əlavə 12 hektar torpaq sahəsi alıb. Bununla yanaşı, hər il icarəyə torpaq götürür. Bu il də 25 hektar sahəni icarəyə götürüb.

10 ilə yaxındır ki, həm də qarğıdalı əkibbecərir. Türkiyənin “May” firmasının sırf yağlılıq üçün olan toxumundan istifadə edir. Nəzərdə onu da tutub ki, toxumu öz əkin sahəsindən əldə etsin; toxuma sərf olunan vəsait də özünə qalsın. Qarğıdalı və günəbaxan əkini sahələrində bol məhsul yetişdirib.

Müsahibim deyir ki, qarğıdalı və günəbaxan əkini tarixən Şərurda olub. Ancaq çox az səviyyədə. Əhali öz həyətyanı torpaq sahəsində bu məhsulları öz tələbatına görə əkib-becərib. Ancaq Şərur şəhərində yaradılması davam etdirilən sənaye məhəlləsində bu məhsullardan istifadə olunacağını eşidəndə çoxlu torpaq mülkiyyətçisi onların əkininə başlayıb. Sahələrdə bol məhsul yetişdirilib. Vaxtında aqrotexniki tədbirləri yerinə yetirən ailə təsərrüfatının zəhmətinin hədər getmədiyini dilə gətirən Sultan Tağıyev əkdiyi “Ceyhan 99” taxıl sortunun üstünlüklərindən də danışaraq deyir ki, bu il əkib-becərdiyi taxılın orta məhsuldarlığını 60 sentnerə çatdırıb. Bunu son hədd saymır, məhsuldarlığı əkin sahələrini genişləndirməklə deyil, daha intensiv üsullardan istifadə etməklə artırmağa çalışır.

Nəhayət, yuxarıda sadaladığımız statistik rəqəmlərin arxasında nə dayanır? Torpağa və zəhmətə bağlılıq, mövcud imkanlar və yaradılan şəraitdən səmərəli istifadəmi?

Özünün dediklərindən:

– Elə kolxoz və sovxoz dönəmində də torpaqda çalışmışam. Ailəm də mənimlə bərabər həmin təsərrüfatda işləyib. Ancaq o dövrün çətinliklərini elə o illərdə yaşayanlar daha yaxşı bilirlər. Ona görə də məhz o insanlar bugünkü şəraitdən daha səmərəli istifadə etməklə gəncləri öz arxalarınca aparmağı bacarırlar. Onlara neçə illərdir ki, qazandıqları təcrübəni öyrədirlər.

Beləcə, torpağı münbit, suyu bol, sakinləri zəhmətkeş olan Şərur rayonundan, ailə təsərrüfatı başçısı Sultan Tağıyevdən ayrılarkən düşünürdüm ki, bir çox əkinçilik sahələrində qazanılmış zəngin təcrübə həm də hansısa peşəyə, sənətə yiyələnməkdir. Torpağın güclü sehri var. Bu sehrə düşdünsə, ondan ayrıla biləməyəcəksən. O isə sənin yaşayışını təmin edəcək, gün-güzəranını daha da yaxşılaşdıracaq.

✍ **Muxtar MƏMMƏDOV**

# Həvəsin, incə zövqlərin və qabiliyyətin hakim olduğu ünvan:
## *Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi*

*Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və muxtar respublikamızın dinamik inkişaf mərhələsini təşkil edən elm, təhsil, innovasiya sahəsində yenilikçi ideyaların gerçəkləşdirilməsi müasir tariximizə yeni-yeni uğurların yazılması ilə öz bəhrəsini verir. Bu mənada, uşaq və gənclərimizin gələcəkdə potensial kadr kimi öz bilik, bacarıq və qabiliyyətlərinin üzə çıxarılmasında dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuş tədris obyektlərinin, o cümlədən məktəbdənkənar müəssisələrin rolu böyükdür. Hazırda muxtar diyarımızda 36 məktəbdənkənar müəssisə fəaliyyət göstərir ki, onlardan da 3-ü paytaxt Naxçıvan şəhərinin payına düşür. Həmin müəssisələr arasında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi xüsusi yerə malikdir. Elə biz də yetişməkdə olan gənc nəslin bədii təfəkkürünə, istedadlarına işıq saçan, onları bir-birindən maraqlı qabiliyyətlərə yiyələndirməklə həyatlarına, sözün əsl mənasında, nur çiləyən həmin ünvanın yolunu tutduq.*



Müsahibimiz mərkəzin direktoru Ceyran Alməmmədova bizimlə söhbət zamanı bildirdi ki, 1979-cu ildə Naxçıvan Şəhər Pionerlər evi kimi yaradılan məktəbdənkənar müəssisə 2009-cu il mart ayının 19-dan etibarən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi adı ilə fəaliyyətini davam etdirir. Mərkəzin ulu öndərin adını daşıması isə əməkdaşların üzərinə böyük məsuliyyət qoyur, onları daha səylə çalışmağa sövq edir. Çünki ***"Uşaqlar bizim gələcəyimizdir"***, – deyən ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində balacalara böyük qayğı ilə yanaşıb, onları daim diqqət mərkəzində saxlayıb. Məhz dahi siyasətçinin rəhbərliyi ilə uşaq və yeniyetmələrin sağlamdüşüncəli, hərtərəfli biliyə malik yetişmələri istiqamətində bir sıra tədbirlər həyata keçirilib, fərman və sərəncamlar imzalanıb. Bu siyasət hazırda muxtar respublikamızda uğurla davam etdirilir. Bu mənada, hərtərəfli şəraitlə təchiz olunmuş məktəbdənkənar təhsil müəssisələri uşaq və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı, asudə vaxtlarının səmərəli təşkilində mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, müasir dövrümüzdə mövcud olan yeniliklər, sözsüz ki, faydalı olduğu qədər zərərli vərdişləri də özündə daşıyır. Zərərli vərdişlərin gənclərə vurduğu istər fiziki, istərsə də mənəvi yaraların fəsadları çox ağır və sağalmaz olur. Cəmiyyətimizdə belə neqativ hallara qarşı biz müəllimlər tərəfindən mübarizə aparılmalı, gənclərin asudə vaxtlarının təşkilinə nail olunmalı, yeniyetmə və gənclərin sağlam əqidədə, dövlətçilik maraqlarına uyğun formalaşması təmin edilməlidir. Qürurverici haldır ki, muxtar diyarımızda aparılan uğurlu gənclər siyasəti hər keçən gün öz bəhrələrini verir. Dövlətimiz tərəfindən gənclərə xüsusi diqqət və qayğı göstərilir. Bu yolda fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin rolu isə inkaredilməzdir. Bununla yanaşı, mərkəzimizdə sağlamlıq imkanları məhdud uşaqları daim diqqətində saxlayan muxtar respublika rəhbərinin Sərəncamı ilə təsdiq olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiya üzrə Dövlət Proqramı"nın icrası istiqamətində mütəmadi olaraq dərnəklərə üzv olan həmin uşaqların əl işlərindən ibarət sərgilər təşkil edilir.

Ceyran xanım onu da bildirdi ki, hazırda mərkəzdə 90 yerlik akt, 2 rəqs, boks və idman zalları, 1 geyim otağı, 1 emalatxana, 1 internetə quraşdırılan kompüter, 1 elektron lövhəli robotexnika, 1 elektron lövhəli mental, 1 qum, 2 ebru sənəti, 1 dram, 1 dulusçuluq, 1 gimnastika, 1 kitabxana, 1 qalereya otaqları və müxtəlif adda dərnək otaqlarının əsaslı şəkildə təmiri və yeni dərnək otaqlarının müasir maddi-texniki baza ilə təmin olunması dərnəklərin səmərəli fəaliyyətinə əlverişli şərait yaradıb. Bununla yanaşı, mərkəzdə bir neçə şöbədə müxtəlif sahələr üzrə fəaliyyət göstərən innovativ dərnəklərdə muxtar diyarımızın hər yerindən qatılan şagirdlərin yaradıcılıq imkanları inkişaf etdirilir. Məşğələlərdə uşaq və yeniyetmələrə rəssamlıq, bədii tikmə, rəqs, musiqi və digər yaradıcı sənət sahələrinin incəlikləri nəzəri biliklər və praktik vərdişlərlə mükəmməl şəkildə öyrədilir. Həmçinin yaradıcı təfəkkürlər və bacarıqlar nəzərə alınaraq gələcəkdə mərkəzdə yeni dərnəklər də fəaliyyət göstərəcək.

Müsahibimiz onu da diqqətimizə çatdırdı ki, Kütləvi tədbirlər şöbəsinin tərkibində yeni açılan "Dram" və "Naxçıvan folkloru" olmaqla, bir neçə dərnək fəaliyyət göstərir. Bunlar "Gənc Heydərçilər" və digər elmi dərnəklərdir ki, uşaqların marağını özünə daha çox cəlb edir. Dərnək üzvləri müxtəlif şeir, hekayə, dram və digər müsabiqələrdə iştirak edərək müvəffəqiyyət qazanır, müxtəlif tədbirlərdə öz bədii qiraətləri, çıxışları, səhnəcikləri ilə iştirak edir, ingilis dilini öyrənirlər.

Uzun illərdir ki, yaradıcılıq mərkəzinin peşəkar kollektivi arasında çalışan, Milli dəyərlər, toxuculuq və dekorativ-tətbiqi sənət şöbəsinin müdiri İsmayıl Qəhrəmanovla da həmsöhbət oluruq.



İsmayıl müəllim deyir ki, mərkəzdə fəaliyyət göstərən hər bir şöbənin nəzdində innovativ dərnəklər yaradılması günün tələbidir. Gənc nəslin inkişafını daim diqqətdə saxlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən muxtar respublikada təhsilin bütün pilləəri, eləcə də məktəbdənkənar təhsil üzrə müasir tədris şəraiti yaradılıb. Yaradılan şəraitdən düzgün istifadə etmək, uşaq və gəncləri vətənpərvər, təhsilli böyütmək, onlara peşə öyrətmək, istedadlarını üzə çıxarmaq isə bizim qarşımızda duran əsas vəzifə borcudur. Qeyd edim ki, Milli dəyərlər, toxuculuq və dekorativ-tətbiqi sənət şöbəsinin nəzdində fəaliyyət göstərən "Ağac üzərində oyma", "Metal üzərində bədii döymə", "Xalçaçılıq", "Dulusçuluq", "Ağac üzərində yandırma", "Bədii tikmə", "Aplikasiya", "Dekorativ-tətbiqi sənət", "Dekorativ rəsm" dərnəkləri məktəblilərin ən çox üz tutduqları sahələrdəndir. Dərnəklərimizin hər biri estetik zövqün ən incə nüanslarını özündə birləşdirərək bir-birindən maraqlı əl işləri ilə müəssisəmizə üz tutan hər bir kəsin marağına səbəb olur. Bütün bunlar gənc və yeniyetmə nəslin düzgün və estetik yöndə inkişafına bilavasitə şərait yaratmaqla yanaşı, onlarda Vətənə və ətraf aləmə olan məhəbbətin daha da gücləndirilməsinə köməklik göstərir.

"Dekorativ rəsm" dərnəyinin rəhbəri Səkinə Qarayeva ilə həmsöhbət oluruq. O, 15 ildir ki, bu sənət sahəsində çalışır və xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətinə görə 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib. Səkinə xanım deyir ki, muxtar respublikada bütün sahələrdə istedadlı gənclər yetişir. Onlar arasında sağlamlıq imkanları məhdud uşaqlar da var. Bu gün rəssamlıq sənətinə maraq göstərən həmin uşaqların gələcəkdə yaxşı sənət adamı kimi formalaşmasında innovativ dərnəklərin böyük rolu vardır. Rəhbərlik etdiyim dərnəyə də onların maraq göstərməsi məni hədsiz sevindirir.

"Bədii tikmə" dərnəyinin rəhbəri Şükufə Məmmədova illərdir ki, dekorativ-tətbiqi sənətin bir növü olan bədii tikmə sənətini uşaqlara öyrədir. Bu sənətin tarixi haqqında məlumat verən müsahibim deyir ki, orta əsrlər dövründən etibarən Naxçıvanda tikmə sənəti geniş yayılıb, bu sənətlə məşğul olan ustalar rəngarəng ipək və yun saplardan, həndəsi və nəbati naxışlar əsasında düzülmüş pilləklərdən istifadə etməklə tikmə sənətinin müxtəlif növlərini yaradıblar. Sevindirici haldır ki, cilalana-cilalana dövrümüzə qədər gəlib çatan bədii tikmə sənəti bu gün də muxtar respublikamızda yaşadılır. Bu həm də milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq baxımından vacib əhəmiyyət kəsb edir. Biz də bu sahədə həvəsi, bacarığı olan uşaqları mərkəzdə dərnəyə üzv qəbul edirik. Onların içərisində bu sənət sahəsinə maraq göstərən sağlamlıq imkanları məhdud uşaqlarımız da vardır. Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi, sağlamlıq imkanları məhdud gəncimiz Leyla Bayramova bir ildir, dərnəyə gəlməyinə baxmayaraq, çox gözəl tikmə nümunələri hazırlayır. Leylaya bu sənətin bütün sirlərini öyrədirəm. Muncuqla, pilləklə, tutqun, ipək saplarla işləyirik. Onun əl işləri muxtar respublikada, mərkəzdə keçirilən sərgilərdə, tədbirlərdə nümayiş olunur və özünə yer alır. Sərgi-satışlardan əldə olunan gəlir isə onların özlərinə verilir. Bu onları həm həvəsləndirir, həm dərnəyə üzv olmaq istəyənlərin sayını artırır.

Müəssisədə sağlamlıq imkanı məhdud olan gənc istedad Leyla Bayramovanın nənəsi, Naxçıvan şəhər sakini, 70 yaşlı Lətifə Pənahova ilə də həmsöhbət olduq. Lətifə xanım minnətdarlıq hissi ilə bildirdi ki, mərkəzdə yaradılan şərait, sözün əsl mənasında, təqdirəlayiqdir. Peşəkar müəl-



lim kollektivinin himayəsində uşaqlarımız yaradıcılığın bir çox sirlərinə yiyələnərək vaxtlarını səmərəli keçirirlər. İnanırsınızmı, Leylanı ilk dəfə bura gətirəndə düşünürdüm ki, onun əlləri tikiş üçün iynə belə tuta bilməyəcək. Amma qısa zaman müddətində "Bədii tikmə" dərnəyinin bacarıqlı, savadlı müəllimləri tərəfindən nəvəm bu işin öhdəsindən gəldi. Artıq o, tikmənin bir-birindən maraqlı növləri ilə məşğuldur. Müəssisədə nəvəmin timsalında olan bir neçə sağlamlıq imkanları məhdud uşaq var ki, onların da müxtəlif sahələrdə qazandıqları uğurları görürük, onlarla birgə sevinirik. İnanıram ki, mənim timsalımda olan bütün valideynlər yaradılan şəraitdən razıdır. Niyə də razı olmasınlar? Bir halda ki bu ünvanda övladlarımız öz bacarıqları ilə biz valideynlərinin, müəllimlərinin sevincinə səbəb olurlar. Burada yaradılan hərtərəfli şərait üçün mən dövlətimizə və mərkəzin kollektivinə minnətdarlığımı bildirirəm.

*Bu gün diyarımızda mövcud olan hərtərəfli şərait, dövlətimizin elmə, təhsilə verdiyi dəyər, yaradılan geniş imkanlar onu deməyə əsas verir ki, gənclərimizin nurlu sabahı öz məsuliyyətini dərk edən savadlı müəllimlərimizin əlindədir. Onlar da qarşılarına qoyulan vəzifələrin öhdəsindən gəlməyə çalışırlar. Mərkəzlə tanış olduğumuz müddət ərzində bunun əyani sübutunu bir daha gördük və əminliklə deyə bilərik ki, işıqlı gələcək gənclərlə gələcək...*

Məcid RƏŞADƏTOĞLU

---

*Muxtar respublikamızda dövlət qayğısı hesabına təhsilin bütün pillələri üçün şərait yaradılıb, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib. Sevindiricidir ki, yaradılan şəraitdən istifadə edərək qəbul imtahanlarında yüksək bal toplayan, müasir texnologiyaların dilini bilən, ixtiralar edən gənclərimizin sayı getdikcə artır. Biz də builki qəbul imtahanlarında yüksək bal toplayan, Naxçıvan şəhərinin ümumtəhsil məktəblərindən məzun olan gənclərlə həmsöhbət olduq.*

*Gəncliyimiz, gələcəyimiz*

## Onların uğur hekayəsi



2005-ci il iyulun 27-də Naxçıvan şəhərində anadan olan ***Ədalət Əliyev*** 2011-ci ildə Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin I sinfinə qəbul edilib. 2022-ci ildə məktəbi "Qızıl" nişanla bitirib. Təhsil aldığı müddətdə bir çox uğurlara nail olub. Muxtar respublika fənn olimpiadalarında coğrafiya fənni üzrə X sinifdə 2-ci yeri , XI sinifdə 3-cü yeri tutub. Dəfələrlə "Xəmsə" milli intellektual oyununda iştirak edib. "Azərbaycanı tanıyaq" xəritəqurma müsabiqəsində qalib adını qazanıb. Bu il II ixtisas qrupu üzrə qəbul imtahanında 647 bal toplayaraq muxtar respublika birincisi olub. Bu uğuruna görə, ilk növbədə, valideynləri və müəllimlərinə özünü borclu saydığını deyən Ədalət Əliyev bildirdi ki, onlar həmişə mənə dəstək olublar. Həmçinin vaxtı düzgün və səmərəli bölmək, çox çalışmaq, mütaliə etmək mənə kömək oldu. Ali təhsilimi Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə ixtisası (ingilis dilində) üzrə davam etdirmək, ixtisasım üzrə dərin biliklərə yiyələnərək dövlətimə layiqli şəxs kimi xidmət etmək istəyirəm.



***Aynur Eynalova*** 2005-ci il sentyabrın 18-də Naxçıvan şəhərində anadan olub. Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin məzunudur. O deyir: – Məktəbdə oxuduğum müddətdə sınaq imtahanlarında iştirak edərək 1-ci və 2-ci yerləri tutmuşam. Bu da mənə universitetə yüksək balla qəbul olmaq üçün daha çox çalışmağa motivasiya olub. Məktəbi "Qızıl" nişanla bitirmişəm. Azərbaycan dili, ədəbiyyat, ingilis dili fənlərinə xüsusi marağım olub və III ixtisas qrupu üzrə imtahanlara hazırlaşmışam. Qəbul imtahanında 644 bal toplayaraq yüksək nəticə əldə etmişəm. Təhsilimi Naxçıvan Dövlət Universitetində davam etdirmək istəyirəm. Çünki bu universitetdə tədrisin dünya standartları səviyyəsində olduğunu bilirəm. Düşünürəm ki, uğur qazanmaq üçün bir məktəbliyə ən əsası məsuliyyət vacibdir. Daha sonra vaxtdan səmərəli istifadə etmək, müəllimlərin tapşırıqlarına əməl etmək və dərsləri tez-tez təkrar etmək vacibdir. Hədəfim Hüquq fakültəsini bitirib,Vətənimə layiqli, ixtisaslı hüquqşünas olmaqdır. Bundan əlavə, yeni dillər öyrənməyə xüsusi həvəsim var. Universitetdə oxuyanda da çalışacağam ən azı iki xarici dil öyrənim.

2005-ci il oktyabrın 19-da Naxçıvan şəhərində anadan olan ***Nigar Kərimova*** 15 nömrəli tam orta məktəbdə təhsil aldığı illərdə IX sinifdən başlayaraq fənn olimpiadalarında iştirak edib, final mərhələsinə qədər yüksəlib. 2020-ci ildə "Sabahın tədqiqatçıları" layihəsində iştirak edərək bir çox nailiyyətlər qazanıb. Məktəbi "Qızıl" nişan və fərqlənmə attestatı ilə bitirən Nigar qəbul imtahanında IV ixtisas qrupu üzrə 643 bal toplayıb. Təhsilini Azərbaycan Tibb Universitetində davam etdirmək istəyir.



Nigar deyir: – Əldə etdiyim uğura görə ilk olaraq özümə borcluyam. Çünki bu yolda uğur əldə edəcəyimə inandım və valideynlərim istiqamət, müəllimlərimsə təhsil verdi. Fikrimcə, hər bir məktəbli seçdiyi yolda uğur qazanacağına psixoloji cəhətdən özünü hazır etməlidir. Yəni bu yolda əzmli, iradəli olmalı və çox çalışmalıdırlar. Hər uğursuzluğun yeni bir uğura açar olduğunu bilməlidirlər. Bundan əlavə, fiziki cəhətdən də özlərini yormamalı, yuxu rejiminə, qida normasına, dərs müddətində ayrılan istirahətə diqqət etməlidirlər. Məqsədim cərrah olmaq və insanların sağlamlığına xidmət etməkdir.



***İlkanə Allahverdiyeva*** 2005-ci il fevralın 2-də Naxçıvan şəhərində anadan olub. 2011-ci ildə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin I sinifində oxumağa başlayıb. Riyaziyyat fənninə böyük marağı olub və bu fənn üzrə olimpiadalarda iştirak edib. Həmin olimpiadalardan "American Matematics Copmpetitions"da sertifikata layiq görülüb. İlkanə söhbət zamanı bildirdi: – Şahmatla məşğul olmağı xoşlayıram və 2-ci dərəcəli oyunçuyam. İştirak etdiyim yarışların 11-də müxtəlif dərəcəli diploma layiq görülmüşəm. Bu diplomlar arasında "Naxçıvan Open-2014"də layiq görüldüyüm ikincilik də var. IX sinifdə oxuyarkən "Sabahın tədqiqatçıları" layihəsində iştirak etmişəm. X sinifdən təhsilimi Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə davam etdirmiş və 2022-ci ildə bu məktəbdən məzun olmuşam. I ixtisas qrupu üzrə qəbul imtahanında 628 bal toplamışam. Təhsilimi Bakı Ali Neft Məktəbinin İnformasiya texnologiyaları ixtisası üzrə davam etdirmək istəyirəm. Digər şagirdlərə isə deyirəm ki, ilk olaraq qarşılarına məqsəd qoysunlar və onun üçün çox çalışsınlar.

*Biz də gələcəyin bu alitəhsilli gənclərinə uğurlar arzu edirik.*

Güntac ŞAHMƏMMƏDLİ

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan çox qiymətli maddi və mənəvi mədəniyyət irsinə malikdir. Bu sırada musiqi mədəniyyəti xüsusi yer tutur. XVIII yüzillikdə musiqi mədəniyyəti özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişafda dövrünün tanınmış müğənnilərindən sayılan Səttarın böyük rolu olub. Səttar İran şahı Məmməd Mirzənin sarayında xanəndəlik etmiş, 1844-cü ildə Naxçıvana köçmüş və burada iki il yaşayıb-yaratmışdır. Bundan başqa, Süleyman xan tərəfindən Naxçıvana gətirilən, muğam sənətini dərindən bilən Molla İsmayıl, Əliş Xoşkeşinli, Kərbəlayi Baxşəlinin də musiqi sənətinin inkişafında xidmətləri az olmamışdır.*

# Naxçıvanda bəstəkarlıq məktəbi böyük inkişaf yolu keçib

Naxçıvan musiqi mədəniyyətinin öyrənilməsi, tədqiq olunması baxımından naxçıvanlı bəstəkar və tədqiqatçı Nazim Quliyevin "Naxçıvan musiqi mədəniyyəti tarixindən" adlı kitabından musiqi mədəniyyətinin inkişafına töhfələr vermiş şəxslər haqqında ətraflı məlumat almaq olar. XVIII əsrdə məşhur musiqiçi Muradağa Naxçıvanlının, dahi Aşıq Alının müəllimlərindən biri olan Ağ Aşıq Allahverdi Kosacanlının Naxçıvan diyarından olmaları, bu diyarda yazıb-yaratmaqları, eləcə də Naxçıvanı vəsf edən onlarca musiqi əsərləri zamanın süzgəcindən keçərək bu gün də öz təravətini itirməməsi Naxçıvan musiqi mədəniyyətinin nəhəng köklü sütunları olmasından xəbər verir.

Ağ Aşığın ölümündən sonra da (1860) Naxçıvanda və digər bölgələrdə onun davamçıları aşıq sənətinin inkişafında davamlı və məqsədyönlü işlər aparmışlar.

Ümumiyyətlə, Naxçıvan musiqi mədəniyyətinin inkişafı digər xalqların mədəniyyəti kimi xalq şənlikləri və saray musiqisi ilə bağlı olmuşdur. Onlarca xalq mahnısı və rəqslərin Naxçıvan ərazisi, bu diyarda igidlik göstərən mərd oğul və qızların adı ilə bağlı olması bu torpaqda bəstəkarlıq sənətinin də inkişafının göstəricisidir. Naxçıvan torpağından axıb keçən Araz çayının, Şərur düzündən axan Arpaçayın, bağlar diyarı Ordubadın, Şahbuzun, Batabatın gözəlliklərini tərənnüm edən lirik melodiyalar, Qaçaq Nəbi, onun Həcər xanımını vəsf edən mahnılar, adları bizə məlum olmayan naxçıvanlılar və yaxud bu torpaqda yaşayıb-yaradan bəstəkarlardan xəbər vermirmi? İllər-qərinələr keçməsinə baxmayaraq, o mahnılar indi də öz təravətini itirməmişdir. "Naxçıvan diringisi", "Naxçıvan", "Ordubad", "Şahbuz" aşıq havaları, "Çit tuman", "Araz", "Apardı sellər Saranı" xalq mahnıları, Şərur yallıları bu qəbildəndir. Deyilənlərə görə, "Apardı sellər Saranı" xalq mahnısı Şərurun Muğancıq-Mehrab, Muğancıq-Müslüm kəndlərindən axan Arpaçayda qərq olmuş Sara adlı bir nakam gəlinə Kosacan kəndində yaşayan musiqiçi tərəfindən ithaf edilmişdir.



Bəstəkar Rəşid Məmmədov xalq çalğı alətləri orkestrinin şagirdləri ilə

Naxçıvanlılar musiqisevərdirlər. Və onların musiqi dəsgahı üçlük olub. Üçlüyün tərkibi tar, kaman və qavaldan ibarət olardı. Məhz bu tərkibdə 3 gün, 3 gecə toylar yola verilərdi. Təsadüfi deyil ki, mənfur qonşularımız olan ermənilər tez-tez naxçıvanlı musiqiçiləri öz şənliklərinə dəvət edərdilər. Bununla da elə o vaxtlardan bizim milli musiqimizi, mahnı və rəqslərimizi oğurlamağa başladılar.

Naxçıvan şəhərinin mərkəzində "Zaviyə məscidi" adlanan binada sovetlər dönəmində musiqi dərnəyi yaradılmışdı. Həmin dərnəyin tar məşğələsinə rəhmətlik Səfər Rəcəbov müəllimlik edirdi. Ağsaqqallardan, ağbirçəklərdən eşitdiyimə görə, Səfər müəllim çox yaxşı tar ifaçısı imiş. Onun tələbələrindən biri görkəmli bəstəkarımız Nəriman Məmmədov olmuşdur ki, bəstəkar onu sonralar ilk müəllimi kimi hörmətlə anaraq xalq mahnı və rəqslərini bu müdrik insandan öyrəndiyini fəxrlə yada salırdı. Zaman gələcəkdi, Nəriman müəllimə fəxri ad veriləndə özünün ilk müəllimi – uşaq vaxtından dünya işığına həsrət qalan Səfər Rəcəbovu Naxçıvan Muxtar Respublikası Ali Sovetinə aparıb deyəcəkdi ki, əvvəl fəxri adı mənim müəllimimə verin. Bəli, bu xüsusiyyət yalnız qəlbində müəlliminə böyük hörmət bəsləyən insana xas ola bilərdi.



Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb
Mahnı və çiçək bayramının məşqi
Bəstəkar Məmməd Məmmədov

Naxçıvan bəstəkarlıq məktəbinin layiqli davamçısı olan, Azərbaycanda çox tez bir zamanda şöhrət qazanan istedadlı musiqiçi Ramiz Mirişli ilk musiqi təhsilinə kamança ifaçısı kimi başlayıb. Musiqi məktəbində oxuduğu illərdə İslam Səfərlinin sözlərinə yazdığı "Dalğalar" mahnısı onun yaradıcılığında möhkəm zəmanətlə bəstəkarlığa yol açır.

Böyük Hüseyn Cavidin oğlu, Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirən Ərtoğrol Cavid həm də Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 24 illik qısa və məşəqqətli ömründə o, gözəl musiqi əsərləri yaradıb. Fortepiano üçün yazdığı "9 variasiya", skripka üçün yazdığı "Poema", Nizami Gəncəvinin 800 illik yubileyinə həsr etdiyi "Sevgili yar, gəl", "Gecə mahnısı", skripka və fortepiano üçün adajiosu, Cəfər Cabbarlının sözlərinə "Bir sən idin, bir mən idim, bir da yamaclar" mahnısı, Nigar Rəfibəylinin sözlərinə "Eşq olsun", Tahir Rəsizadənin sözlərinə "Sənin olaydım", türkmən şairəsi Kəminənin sözlərinə "Leylanın vəsfi" romansları, "Şeyx Sənan", "Məhsəti" natamam operaları, "Babəkin andı" simfonik poeması onun yaradıcılığında xüsusi yer tutur.

Zaman keçdikcə bəstəkarlığın uğurlu inkişafı bu janra müraciət edənlərin sayını artırmağa başlayır. Onlardan Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədovun adlarını çəkə bilərik. İlk yaradıcılıqlarını teatr musiqisində sınayan həmin bəstəkarlar tez bir zamanda bu janra daha böyük həvəs göstəriblər. Tamaşalara yazdıqları musiqidən başqa onlar digər janrlara da müraciət etməyə başlayıblar.

Yaradıcılığına bəstəkarlıqla başlamış görkəmli pedaqoq, Naxçıvanda truba va akkordeon siniflərinin açılmasında əvəzsiz xidmətləri olan Məmməd Məmmədovun fəaliyyəti çoxşaxəlidir. Ovaxtkı bütün dövlət tədbirlərinin keçirilməsində mühüm xidmət göstərən bu insan naxçıvanlı musiqisevərlərin yaddaşında özünə dərin iz salmışdır.

Naxçıvan bəstəkarlıq məktəbinin səhifələrini vərəqləyərkən bacarıqlı pedaqoq, musiqiçi və bəstəkar Məmməd Ələkbərovun adını çəkməmək olmaz. 1939-cu ildə Naxçıvanda ilk musiqi məktəbinin ilk məzunu olan Məmməd Ələkbərov 1947-ci ildə Asəf Zeynallı adına Bakı Şəhər Orta İxtisas Musiqi Məktəbinin kamança üzrə Xalq çalğı alətləri şöbəsinə daxil olur. Təhsilini başa vurub Naxçıvana qayıtdıqdan sonra tez bir zamanda bəstəkar kimi tanınır.

Naxçıvan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan Rəşid Məmmədovun yaradıcılığı da diqqətəlayiqdir. Rəşid müəllimin musiqiyə olan böyük istəyi onu Naxçıvan şəhər uşaq musiqi məktəbinə gətirib çıxarır. Asəf Zeynallı adına Bakı Şəhər Orta İxtisas Musiqi Məktəbində Xalq çalğı alətləri şöbəsinə daxil olaraq muğam dərslərini Ağabacı Rzayeva və Əhməd Bakıxanovdan alır. Məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra bəstəkar qələmini sınayaraq "Küsmə, ay qız", "Yağma yağış", "Baxma, oğlan" mahnılarını yazır. Bəstəkar yaradıcılığında irihəcmli əsərlərə də müraciət edir. Onun xalq çalğı alətləri üçün yazdığı 3 hissəli süita buna misal ola bilər. O, eyni zamanda fortepiano üçün miniatürlər də bəstələmişdir.

İnqilabdan sonra Naxçıvanda artıq professional bəstəkarlıq inkişaf etməyə başlayır. Üzeyir bəyin Naxçıvana gəlişindən və onun təşəbbüsü ilə Naxçıvan İcraiyyə Komitəsinin qərarı ilə 1937-ci ildə ilk musiqi məktəbi yaradılır. Üzeyir bəy məktəbin işinin təşkili məsələsinə həssaslıqla yanaşaraq əsas diqqəti milli musiqi alətimiz olan tar və kamançanın tədrisinə verir. Qısa müddət sonra bu sıraya fortepiano da əlavə olunur. Üzeyir bəy Naxçıvandan SSRİ Ali Sovetinə deputat seçilərkən musiqi məktəbinə piano bağışlayır. Amma təəssüflər olsun ki, bu alətin taleyi bəlli deyil. Sonralar məktəbdə tar, kamanla yanaşı, klarnet, akkordeon, skripka və fortepiano sinifləri də yaradılır.

Zəmanəmizin məşhur dirijoru olan Niyazinin, görkəmli müğənnilər Bülbülün, Rəşid Behbudovun və digər musiqiçilərin Naxçıvanla yaradıcılıq əlaqələri həm bəstəkarlıq, həm də ifaçılıq sənətinin inkişafına böyük təkan vermiş olur. Eyni zamanda Naxçıvanda Zülfüqar Hacıbəyovun yaşayıb-yaratması və burada olan musiqi mühiti ilə Üzeyir bəyi yaxından tanış etməsi, poeziyamızın sönməz günəşi Hüseyn Cavidlə Üzeyir bəyin yaxınlığı, Cəlil Məmmədquluzadə ilə daimi yaradıcılıq əlaqələrinin olması Naxçıvanda musiqi mədəniyyətinin inkişafında mühüm əhəmiyyətə malikdir.

Bu gün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar İttifaqının üzvü olan bəstəkarlar və musiqişünaslar öz yaradıcı imkanlarından istifadə edərək milli musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvələri ilə çalışırlar. Bəstəkar, Prezident mükafatçısı Kamal Əhmədovun musiqinin müxtəlif janrlarında yazdığı əsərlər respublikamızın hüdudlarından kənarda da tanınır.

Azərbaycan Bəstəkarlar İttifaqının üzvü Yaşar Xəlilov tələbəlik illərində fortepiano üçün "Prelüdlər", "Variasiyalar", simli alətlər üçün "Kvartet", klarnet və fortepiano üçün "Sonata", simfonik orkestr üçün "Simfonik poema" yazmışdır. Klarnet və fortepiano üçün yazdığı "Sonata" Azərbaycan Bəstəkarlar İttifaqının plenumunda səslənərək SSRİ Bəstəkarlar İttifaqının diplomuna layiq görülmüşdür.

Həm teatr, həm də mahnı yaradıcılığında bəstəkar qələmini sınayan Şəmsəddin Qasımovun da mahnıları tanınmış müğənnilər tərəfindən ifa olunur. Onun "Xatirələr", "Sənin sevgin, mənim sevgim", "Dedin: məhəbbət hanı" mahnıları dinləyicilər tərəfindən sevilir. "Gənclik" Xalq Teatrı üçün 8 tamaşaya yazdığı musiqi ritmik quruluşu və sadə melodik dili ilə oxunaqlı və rəvandır.

Bu gün Naxçıvan Bəstəkarlar Təşkilatında bəstəkar və musiqişünasların yaradıcılığının inkişafı üçün böyük qayğı göstərilir. Muxtar respublikada uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün binaların inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilməsi, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazalarının gücləndirilməsi, Bəstəkarlar Təşkilatının fəaliyyətinin təmin edilməsi xeyli uğurlar qazanılmasına imkan verib. Muxtar respublika musiqiçilərinin əməyi də dövlət tərəfindən daim qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, dövlət təltiflərinə layiq görülürlər.

Təşkilat üzvlərinin müəllif konsertlərinin təşkili də diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində, Naxçıvan Musiqi Kollecində, Naxçıvan Dövlət Universitetində bəstəkarlar və musiqişünasların ustad dərsləri keçilir. Bu da belə deməyə əsas verir ki, Naxçıvan bəstəkarlıq məktəbi özünün yeni inkişaf mərhələsindədir.

**Zemfira BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin baş müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

## Armrestlinq (qol güləşi) üzrə muxtar respublika birinciliyi keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan birinciliyə 17 paralimpiyaçı qatılıb. Olimpiya sistemi üzrə qaliblərin bəlli olduğu yarışda iştirakçılar 75-, 75+ kiloqram çəki dərəcələrində mübarizə aparıblar.

Mükafatlandırma mərasimində çıxış edən gənclər və idman naziri Ramil Hacı və federasiya sədri Nicat Babayev qalibləri təbrik edib, iştirakçılara uğurlar arzulayıblar. Qeyd olunub ki, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin idmana cəlbi, asudə vaxtlarının səmərəli təşkili, o cümlədən onların reabilitasiyası istiqamətində müvafiq addımlar atılır, bu kateqoriyadan olan şəxslərə davamlı olaraq dövlət dəstəyi göstərilir. Yarışa Vətən müharibəsi iştirakçılarının qatılması sevindirici hal kimi qiymətləndirilib. Sağlamlıq imkanları məhdud şəxslərə və idmanın inkişafına göstərdiyi dəstəyə görə Ali Məclis Sədrinə minnətdarlıq ifadə olunub.

Çıxışların ardınca yarışı uğurla tamamlayan iştirakçılara diplom və hədiyyələr təqdim edilib, həmçinin həvəsləndirici yer sahibləri də mükafatlandırılıb.

Nəticələrə gəlincə, 75 kiloqramdan aşağı çəki dərəcəsində Sərdar Həsənov qalib olub. Habil Behbudov ikinci, Turan Hüseynov isə üçüncü yerə sahib çıxıb. 75 kiloqramdan yuxarı çəki dərəcəsinin final görüşü Vətən müharibəsi iştirakçıları Əli Bayramovla Nicat Süleymanov arasında reallaşıb. Əli Bayramov bu görüşdən qalib ayrılaraq birinci, Nicat Süleymanov isə ikinci olub. İlk üçlüyü İlqar Mərdanlı tamamlayıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üzrə tədbirlər hansılardır?*

***Cavab:*** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin sosial müdafiəsi mövcud qanunvericiliyə əsasən dövlət tərəfindən təmin olunur və qorunur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə məqsədli proqramları hazırlayır və həyata keçirir, onlar üçün mərkəzləşmiş xüsusi yaşayış yerləri, habelə təhsil, sosial xidmət və digər müəssisələrin bazasında sosial uyğunlaşma və reabilitasiya üzrə dövlət müəssisələri yaradırlar.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün qəyyumlara (himayəçilərə) Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunan məbləğdə aylıq müavinətlər verilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## İtmişdir

Eyvazov Şahin Məhərrəm oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Hüseynzadə Gözəl Məzahir qızının adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Hüseynzadə Gözəl Məzahir qızının adına "Naxçıvan" Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Hüseynzadə Gözəl Məzahir qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Ə.Qəmküsar 16$^{B}$ ünvanda yaşayan Hüseynova Elnara İsmayıl qızı və digərlərinin adına olan 4053 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Məsul katib: Muxtar MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 723